# VƏTƏN SİZƏ OĞUL DEDİ

***Daha bir Şəhidimiz dəfn edildi***



***Sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı itkin düşən və dünən şəhid olduğu məlum olan Əmrah Rajapov Gəncə şəhər Şəhidlər xiyabanında dəfn edilib.***

***Qeyd edək ki, şəhidimiz 2000-ci ildə Gəncədə doğulub. Atasını kiçik yaşlarından itirən Əmrah, sonradan anası tərəfindən uşaq evinə verilib. Orta məktəbdən məzun olduqdan sonra ona dövlət tərəfindən Masazır məzunlar evindən mənzil hədiyyə olunub. 2019-cu ilin oktyabrında isə hərbi xidmətə yollanıb.***

***Əmrah Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib. Məlumata görə, o, oktyabrın 8-də şəhidlik zirvəsinə ucalıb.***

***MAXE Bayramov Həsən***



***MAXE Bayramov Həsən Bəhrəm oğlu 17.06.1992-ci ildə Gəncə şəhəri, Nizami rayonu, Qızılqaya qəsəbəsi anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək Murov istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

***Tərtər-Ağdərə istiqamətində gedən əməliyyatlarda şəhid olub***



***Şəhidimiz Mollayev İslam Şəmsəddin oğlu 18.01.1996-cı il tarixində Balakən rayonunun Püştətala kəndində anadan olub.***

***Əli Şirinov adına Qaravəli kənd tam orta məktəbini bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb.***

***Hərbi xidməti Bakı şəhəri Abşeron rayonu Güzdək qəsəbəsində və Qusar rayonu N saylı hərbi hissələrində edib.***

***Xidmət müddətində kəşfiyyatçı, snayperçi, həmçinin manqa komandiri vəzifəsində xidmət edib. 2016-cı il iyulun 10-da hərbi xidməti başa vurub.***

***27 sentyabr 2020-ci ildə torpaqlarımızın işğaldan azad olunması uğrunda başlanan İkinci Qarabağ müharibəsində Tərtər-Ağdərə istiqamətində gedən əməliyyatlarda iştirak edib və həmin istiqamətdə gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.***

***Murov istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***



***MAXE Həsənli Elçin Qəşəm oğlu 06.06.1998-ci ildə Göygöl rayonu Qırıqlı kəndində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək Murov istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

***Şəhidimiz ailəli idi, Ürfan adlı övladı Vətənə əmanətdir***

***MAXE Eldarzadə Azər İsmixan oğlu***



***25.10.1994-cü ildə Göygöl şəhərində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək Murov istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

***Şəhidimiz ailəli idi. Ürfan adlı övladı Vətənə əmanətdir.***

***Murov istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***



***MAXE Qabilov İsmayıl Əli oğlu 15.07.1983-cü ildə Gəncə şəhəri, Gülüstan qəsəbəsində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək Murov istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

***Şəhidimiz ailəli idi. Canəli və Səba adlı övladları Vətənə əmanət qalıb.***

***Unutmayaq, unutdurmayaq!***



***"Vətən Müharibəsi Qəhrəmanı", polkovnik-leytenant Orxan Əkbərov...***

***O, düşmənin 200-ə yaxın hərbi qulluqçusunu, 6 silah-sursat dolu maşınını məhv edərək Şəhid olmuşdur.***

***Ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub. Ruhu qarşısında baş əyirik.***